# Yusif surəsi, 21 - Rum surəsi, 29 (Hz. Yusif öz dövrünün Mehdisidir. Din əsas quruluşu ilə heç bir dövrdə dəyişməmişdir)

**Adnan Oktarın Samsun Aks Tv-dəki canlı müsahibəsi (4 noyabr 2010)**

**Adnan Oktar:** Şeytandan Allaha sığınıram. **"Yusifi yer üzündə yerləşdirdik"** (Yusif surəsi, 21). Mehdi (ə.s)-a baxan bir surədir, Yusif surəsi, Mehdi (ə.s) izah olunur inşaAllah. **"Ona yuxuları yozmağı (sözləri şərh etməyi) öyrətdik"** İnşaAllah. Yəni Mehdi (ə.s)-a geniş ölçüdə işarə edir. **"Allah Öz işini qələbə ilə başa çatdırandır".** 2014 əbcəd. **"Allah Öz işini qələbə ilə başa çatdırandır".** Yusif surəsi, bax, deyir ki: **"Yusifi yer üzündə yerləşdirdik".** Hakim etdik -siyasi, iqtisadi- hər istiqamətdən hakim etdik. O dövrün Mehdisi idi hz. Yusif. Tam mehdiyyət meydana gəlmiş, hakimiyyət var. **"Ona yuxuları yozmağı (sözləri şərh etməyi) öyrətdik".** Çox gözəl şərh edir Quranı, o dövrdəki haqq olan kitab nə idisə onu çox gözəl şərh edir. "Allah Öz işini qələbə ilə başa çatdırandır". Tam 2014. 2014-cü ildə nələr olacağını görəcəksiniz onsuz da inşaAllah.

Rum surəsi inşaAllah. Şeytandan Allaha sığınıram. 29-cu ayə. **"Lakin haqsızlıq edənlər",** yəni münafiqlər, müşriklər, fırıldaqçı saxtakarlar, **"heç bir elmə əsaslanmadan",** yəni Qurana əsaslanmadan, Allahın hökmünə, vəhyə əsaslanmadan, **"nəfslərinin istəklərinə uydular".** Öz uydurduqları xurafatlara uymuşlar. **"Allahın zəlalətə saldıqlarını kim doğru yola yönəldə bilər? Onlara yardım edənlər də olmaz. Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara - xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur Allahın yaratdığını heç cür dəyişdirmək olmaz".** Yəni Allahın şəriəti, Allahın yaratdığı fitrətdə dəyişiklik olmur, inşaAllah. **"Doğru din budur",** yəni İslam dini əsas quruluşu ilə dəyişmir. Heç bir dəyişikliyə uğramamışdır. Bəzi təfərrüatlarda dəyişiklik olur.

O münafiqlər, o müşriklər ki, **"O kəslərdən ki, öz dinini bölüb firqələrə ayrıldılar",** dəstələrə ayrıldılar. **"Hər firqə öz təriqətini üstün bilib sevinir".** Öz aralarında da bölünmüşlər, tək başına qalmışlar; hər biri ayrıdır münafiqlərin, **"hər firqə öz təriqətini üstün bilib sevinir".** Doğru yolda olduğunu iddia edirlər ayrı-ayrı.

https://www.harunyahya.info/az/meqaleler/yusif-suresi-21-rum-suresi-29-hz-yusif-oz-dovrunun-mehdisidir-din-esas-qurulusu-ile-hec-bir-dovrde-d